Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 57 (8080) ÇƏRŞƏNBƏ AXŞAMI, 12 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusunun növbəti genişmiqyaslı hərbi təlimi başlayıb

**10 000 əsgər**

**500 zirehli texnika**

**300 artilleriya qurğusu**

**Dünəndən etibarən Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı təlimləri başlayıb. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təsdiq etdiyi plana əsasən müdafiə nazirinin rəhbərliyi altında keçirilən təlimlərə 10 min nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.**

### 50 ən güclü arasında

Hər bir ölkənin qüdrətini göstərən əsas cəhətlərdən biri onun ordusudur. Fərəhli haldır ki, ölkəmizin inkişafı bütün sahələrlə yanaşı, ulu öndər Heydər Əliyevin yaratdığı Azərbaycan Ordusunda özünü daha qabarıq formada büruzə verir. Təbii ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşımızda dayanan əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin artırılması, modernləşməsi, ən son hərbi texnologiyalarla təmin edilməsidir.

Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Ötən il Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının və Bakının işğaldan azad edilməsinin yüzüncü ildönümü münasibətilə keçirilən təntənəli paradlar da ölkəmizin hərbi qüdrətini bir daha aydın nümayiş etdirən möhtəşəm tədbirlər oldu. Xalqımız, eləcə də bütün dünya ictimaiyyəti yenilməz Silahlı Qüvvələrə, orduya malik olduğumuza növbəti dəfə şahidlik etdi. Əvvəlki hərbi paradlarda da xalqımız ordumuzun potensial imkanlarının bir hissəsini görmüşdü. Son paradlar isə göstərdi ki, ötən 15 ildə Azərbaycan Ordusu sürətlə inkişaf edib, arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirib. Ən fərəhlisi odur ki, bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var. Ən müasir tanklar, piyada döyüş maşınları, zirehli transportyorlar, zenit raket sistemləri, özüyeriyən artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, taktiki raket, zenit-raket və minaatan kompleksləri, ağır odatan sistemlər, pilotsuz uçuş aparatları və digər texnikalar Azərbaycana öz hərbi potensialını əhəmiyyətli dərəcədə yüksəltməyə imkan verib. O cümlədən hava hücumundan müdafiə sistemimiz hava məkanımızı inamlı şəkildə nəzarətdə saxlayır. Bu istiqamətdə ordumuzun döyüş qabiliyyəti ən yaxşı silah istehsalçılarının texnologiyaları ilə gücləndirilib.

Son illərdə ordumuzda aparılan əsas islahatlardan biri də hərbi şəhərciklərin, kazarmaların yenidən qurulmasıdır. Artıq bütün hərbi bazalar və şəhərciklərin demək olar ki, hamısı yenidən inşa edilib. Bu isə onu göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir.

İndi Azərbaycan Silahlı Qüvvələrində baş verən keyfiyyət dəyişmələri xarici hərbi ekspertlərin, hərb yönümlü nüfuzlu qurumların, araşdırma mərkəzlərinin diqqətini cəlb edir, qazanılan uğurlar müxtəlif aspektlərdən təhlil predmetinə çevrilir və ordumuzun gələcəyi barədə nikbin proqnozların səsləndirilməsinə əsas verir. Təsadüfi deyil ki, beynəlxalq hesabatlarda Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 güclü ordusu sırasında yer alır.

*Ardı 4-cü səh.*

## 3700 dollar ödə, fərarilik et

### Böyük xaosun və tənəzzülün məngənəsində olan Ermənistan ordusunda artıq cinayətlər leqallaşdırılır

**Regionun lider dövləti statusunu daşıyan Azərbaycanda həyata keçirilən ordu quruculuğu Silahlı Qüvvələrimizin döyüş hazırlığı baxımından kifayət qədər mükəmməl bir səviyyəyə çatmasına səbəb olub. Bunun daha bir bariz nümunəsi dünən keçirilən təlimlərdə göründü. Bu, Azərbaycanda həm ordu quruculuğu prosesinin uğurla getdiyini göstərir, həm də ölkəmizin Ermənistan üzərində hərbi üstünlüyünü davamlı şəkildə yüksəldir.**

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, martın 15-dək Müdafiə nazirinin rəhbərliyi altında davam edəcək genişmiqyaslı təlimlərə 10 min nəfərədək şəxsi heyət, 500-dək tank, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunacaq.

### Erməni gənclərin hərbi xidmətdən yayınması adi hal alıb

Ermənistanda isə əvvəlki kimi silahlı qüvvələrdə böyük problemlər yaşanır. İşğalçı ölkənin ordusu istər döyüş qabiliyyəti, istərsə də təminat baxımından yenə ciddi çətinliklərlə üzləşib. Ölkədə yaşanan demoqrafik problem səbəbindən ordunun şəxsi heyətlə təminatı da sürətlə pisləşməkdə davam edir.

Digər tərəfdən orduda yaranan xoas səbəbindən gənclərin silahlı qüvvələrdə xidmətdən yayınması adi xarakter daşıyır. Belə vəziyyətdə ordudan yayınanların sayının artması bu xüsusda qaldırılan cinayət işlərinin də sayını çoxaldır.

Artıq bu vəziyyət hökuməti də ciddi narahat edir. Belə qəbildən olan cinayət işlərinin sayının azaldılması üçün isə yeni cəhdlər edilir. Elə buna görədir ki, Ermənistan parlamentinin 2018-ci ilədək 27 yaşı tamam olan və hərbi xidmətdən yayınan vətəndaşların müvafiq cərimə ödədikləri halda cinayət məsuliyyətindən azad edilməsi barədə qanuna dəyişiklik layihəsi ilk oxunuşda yekdilliklə qəbul edilib.

*Ardı 6-cı səh.*

## Hindistanın ölkəmizdə yeni təyin olunmuş səfiri fəaliyyətə başladı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavnanın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Bavitlunq Vanlalvavna fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Bavitlunq Vanlalvavna etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat və turizm sahələrində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Səfir Bavitlunq Vanlalvavna diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əməkdaşlığın inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirdi.

Prezident İlham Əliyev səfirə ölkəmizdə fəaliyyəti müddətində uğurlar arzuladı.



## Azərbaycan-Fransa münasibətləri yeni mərhələyə qədəm qoyur



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva Fransa Respublikasına səfərə gedib.

## Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq ölkəmizdə teatr sənətinin daha da inkişaf etdirilməsi, teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il martın 1-dən orta hesabla 50 faiz artırılması təmin edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci hissəsinin icrası ilə bağlı zəruri tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

3.1. bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirin maliyyələşdirilməsi məqsədi ilə cari ilin və növbəti illərin dövlət büdcəsində maliyyə təminatı məsələlərinin həllini təmin etsin;

3.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub









Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfəri çərçivəsində bu ölkənin Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Fransanın Baş naziri Eduard Filip Matinyon sarayında qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransanın Baş naziri Eduard Filipin təkbətək görüşü oldu.

Fransanın Baş naziri ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi və əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Eduard Filip Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin iyulunda Fransaya səfərinin və səfər çərçivəsində Prezident Emanuel Makronla görüşünün ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını vurğuladı. Fransanın Baş naziri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da ikitərəfli münasibətlərin inkişafına mühüm töhfələr verdiyini bildirdi. Ölkəmizin böyük iqtisadi potensiala malik olduğunu deyən Eduard Filip fransız şirkətlərinin Azərbaycanın neft və qeyri-neft sektorunda çalışdıqlarını dedi, bu şirkətlərin Azərbaycan bazarında daha fəal olmasının önəmini vurğuladı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu bildirdi, bu səfərin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi. İqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu deyən Mehriban Əliyeva Azərbaycanda 59 fransız şirkətinin fəaliyyət göstərdiyini diqqətə çatdırdı və fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Azərbaycandakı iqtisadi inkişaf proseslərindən danışan Mehriban Əliyeva ölkəmizin Dünya Bankının "Doing Business" hesabatında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasında olduğunu bildirdi. Azərbaycanın Birinci vitse-prezidenti bu il hökumətlərarası komissiyanın toplantısının keçirilməsinin önəmini vurğuladı. Humanitar, mədəniyyət, elm sahələrində əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bəyan edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bildirdi ki, hazırkı status-kvo qəbuledilməzdir. Münaqişənin tənzimlənməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var və münaqişə bu qətnamələr əsasında, beynəlxalq hüququn normaları, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Baş nazir Eduard Filip Fransanın sülh danışıqlarına sadiq qaldığını və münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi.

Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi keçirildi.

Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya"nı Azərbaycanın maliyyə naziri Samir Şərifov və Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuan imzaladılar.

"Azərbaycan Mərkəzi Bankı ilə "Rotchild & Cie" Bankı arasında Strateji Əməkdaşlıq Sazişi"ni Mərkəzi Bankın sədri Elman Rüstəmov və "Rotchild & Cie" Bankının baş direktoru Aryel Malard dö Rotşild imzaladılar.

"Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi"ni və "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə"ni "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov və "Thales International" şirkətinin baş direktoru Rafael Eskinazi imzaladılar.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri ilə görüşüb

Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva martın 11-də Parisdə "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşüb.





AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşündən məmnun olduğunu dedi. Birinci vitse-prezident Mehriban Əliyeva bildirdi ki, XIX əsrdə Azərbaycanda çox məşhur olan Rotşildlər 1883-cü ildə "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti"ni təsis etmişdilər. "Azərbaycan - Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər", - deyən Mehriban Əliyeva bütün bunların Bakıda neft sənayesinin daha da canlanmasına səbəb olduğunu diqqətə çatdırdı. Bununla yanaşı, Rotşild qardaşlarının xeyriyyəçiliklə də məşğul olduqlarını və Bakıda çoxlu gözəl binalar inşa etdiklərini deyən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlığın ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra da davam etdirildiyini bildirdi, Azərbaycan Mərkəzi Bankı ilə "Rothschild Global Financial Advisory" şirkəti arasında imzalanacaq strateji əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğuladı. Mehriban Əliyeva David dö Rotşildi ölkəmizə səfərə dəvət etdi.

"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild bu görüşdən şad olduğunu bildirərək Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu dedi. "Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər", - deyən David dö Rotşild Azərbaycana səfər dəvətini məmnunluqla qəbul etdi.

Görüşdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi professor David Hayat ilə görüşüb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 11-də Parisdə Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə onkoloji xəstəliklərin qarşısının alınması, bu sahədə təcrübə mübadiləsinin aparılması və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı.

Həmçinin görüşdə iki ölkənin onkologiya mərkəzləri arasında sıx əməkdaşlığın qurulmasının və birgə layihələrin həyata keçirilməsinin zəruriliyi vurğulandı.



# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti ilə görüşü olub



Martın 11-də Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə "Suez Groupe" şirkəti arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.



# UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2019-cu il mayın 15-dən iyunun 1-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu;

2.2. Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən sənəd;

2.3. UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyununa bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısına uyğun olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə UEFA-ya və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının 3.3-cü bəndinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 844; 2016, № 7, maddə 1264) ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3.-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Sistemin iştirakçıları aşağıdakılardır:

1.3.1. dövlət orqanları;

1.3.2. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər;

1.3.3. bu əsasnaməyə əlavə edilmiş siyahıda nəzərdə tutulan qurumlar.";

1.2. 1.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.4. Bu əsasnamədə elektron sənəd dövriyyəsi dedikdə sistemin iştirakçıları arasında elektron sənəd mübadiləsinin və sistem çərçivəsində sənədlərin hərəkəti üzrə uçotun aparılması nəzərdə tutulur.";

1.3. 2.3-cü bəndə "server" sözündən sonra "(o cümlədən ehtiyat server)" sözləri əlavə edilsin;

1.4. 5.1.1-ci yarımbəndə "xüsusi" sözündən sonra "texniki" sözü əlavə edilsin;

1.5. Əsasnaməyə əlavənin - "İdarələrarası elektron sənəd dövriyyəsi sisteminin iştirakçısı olan qurumların siyahısı"nın 2-ci, 3-cü, 5-ci və 8-ci hissələri ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

# AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun yaradılmasının 90 illiyi tamam olur.

"Azneft" İstehsalat Birliyinin Mərkəzi Kimya Laboratoriyası bazasında 1929-cu ildə ilk Azərbaycan Neft Tədqiqat İnstitutu kimi fəaliyyətə başlayan, 1959-cu ildən isə Azərbaycan Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutu adlandırılan bu mötəbər elmi mərkəz Azərbaycanda neft emalı və neft kimyası sahəsində fundamental tədqiqatları ilə tanınmış və ötən müddət ərzində mühüm nailiyyətlər qazanmışdır. İkinci Dünya müharibəsində qələbənin əldə edilməsində Bakı neftinin əhəmiyyətli rol oynaması, eyni zamanda, institut alimlərinin təqdirəlayiq əməyi ilə bağlıdır. İnstitutda işlənib hazırlanan yeni üsul və texnologiyalar, aparılan yüksək səviyyəli tədqiqatların nəticələri və ali dövlət mükafatlarına layiq görülən ixtiralar sənayedə özünün geniş tətbiqini tapmışdır. İnstitut əməkdaşlarının müvafiq elmi istiqamətlər üzrə tədqiqatları xarici ölkələrin ən sanballı elmi nəşrlərində əks etdirilmişdir. İnstitutun hazırladığı yüksəkixtisaslı kadrlar respublikada və onun hüdudlarından kənarda bu gün də uğurla çalışmaqdadırlar.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun ölkədə neft-kimya elmlərinin və neft sənayesinin inkişafında müstəsna xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

# E.S.Babayevin Bakı Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Səfəralı oğlu Babayev Bakı Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

# E.S.Babayevin Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Səfəralı oğlu Babayev Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

# Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti zati-aliləri xanım Sahle-Uork Zevdeyə

Hörmətli xanım Prezident!

"Efiopiya hava yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Efiopiya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

# Keniya Respublikasının Prezidenti zati-aliləri cənab Uhuru Kenyattaya

Hörmətli cənab Prezident!

"Efiopiya hava yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbərindən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Keniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 mart 2019-cu il*

# 10 000 əsgər, 500 zirehli texnika, 300 artilleriya qurğusu...

## Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusunun növbəti genişmiqyaslı hərbi təlimi başlayıb







*Əvvəli 1-ci səh.*

### Döyüş vərdişlərini artırmağa xidmət edən təlimlər

Qeyd edildiyi kimi, ordunun gücünü onun döyüş imkanlarını nümayiş etdirən vasitələrdən görmək mümkündür. Bu baxımdan paradlar ölkəmizin hərbi qüdrətini nümayiş etdirir. Bununla yanaşı, silahlı qüvvələrimizin mütəmadi olaraq keçirilən təlimləri də Azərbaycan Ordusunun malik olduğu gücün praktik təsdiqidir. Dünəndən başlayan yeni hərbi təlim də ordumuzun döyüş imkanlarının nümayişi kimi diqqəti cəlb edir. Çünki bir təlimə 500-dək hərbi texnika çıxarmaq sıradan bir göstərici sayıla bilməz.

Silahlı Qüvvələrdə qarşıya qoyulan ən əsas məsələlərdən biri olan döyüş qabiliyyətinin daimi olaraq artırılması üçün təkcə yeni hərbi texnikalar alınmır. Eyni zamanda mütəmadi olaraq keçirilən hərbi təlimlərdə müasir döyüş vərdişləri artırılır. Bu məsələ Ali Baş Komandan İlham Əliyevin xüsusilə nəzarətindədir. Təsdiq edilən plana əsasən, il ərzində bir neçə dəfə hərbi təlimlər keçirilir. Silahlı Qüvvələrimizin tez-tez həyata keçirdiyi hərbi təlimlər düşmənin dincliyini pozan əsas amillərdən biridir.



İndiyədək keçirilən hərbi təlimlərdə qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin təyin olunan məntəqələrə çıxışı, idarə olunmasının təşkili, qarşılıqlı fəaliyyətinin yoxlanılması, müdafiənin təşkili, əks-hücum əməliyyatının hazırlanması və keçirilməsi, mürəkkəb və dağlıq relyeflərdə hərbi əməliyyatların aparılması, silahların döyüş tətbiqi kimi vəzifələrin icrası üzrə silahlı qüvvələrimizin bütün bölmələrinin bacarıq və vərdişləri daha da təkmilləşdirilib. Belə təlimlər həm də silahlanmaya yeni qəbul edilən silah və texnikadan peşəkar istifadənin mənimsənilməsi baxımından da əhəmiyyətlidir. Əldə olunan nəticələr göstərir ki, ordumuzun bütün bölmələri istənilən situasiyada qarşısında dayanan vəzifələri layiqincə icra etməyə qadirdir.

Mart ayının 15-dək davam edəcək növbəti hərbi təlimdə isə qoşunlar hücum əməliyyatının hazırlanması, şərti düşmənə bir neçə istiqamətdə zərbə vurulması, onun müdafiəsinin yarılması və qruplaşmalarının darmadağın edilməsi, eləcə də düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərə raket-artilleriya zərbələrinin endirilməsi tapşırıqlarını yerinə yetirəcəklər.

Eyni zamanda təlim mərkəzləri və ümumqoşun poliqonlarında müasir silah sistemləri və vasitələrinin tətbiqi ilə döyüş atışları, o cümlədən raket buraxılışları praktiki icra olunacaq.

Bu gün öz inkişafı ilə dünyada nümunəyə çevrilən Azərbaycan qarşısına qoyduğu hədəflərə uğurla çatır, qarşısına çıxan istənilən problemi müvəffəqiyyətlə həll edir. Sözügedən kontekstdə Azərbaycanın tezliklə ərazi bütövlüyünü də bərpa edəcəyi, üzləşdiyi təcavüzkarlığa birdəfəlik son qoyacağı heç bir şübhə doğurmur. Artıq diplomatik cəbhədə Azərbaycan düşmən üzərində üstünlük qazanıb. Dağlıq Qarabağ münaqişəsinin həllinin hərbi müstəviyə keçəcəyi təqdirdə isə təcavüzkarı hər an acı məğlubiyyətə düçar etməyə hazır olan qüdrətli Azərbaycan Ordusu formalaşıb. Reallıq da göstərir ki, Azərbaycan Ermənistan qarşısında böyük və əzici hərbi üstünlüyə malikdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatı

Martın 11-də Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb.

Təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 500-dək tank, zirehli texnika, eləcə də avtomobil və xüsusi texnika, 300-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 20-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunub.

Təlimlər martın 15-dək davam edəcək.

* * *

Müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə keçirilən təlimlər davam edir.

Təlimin niyyətinə uyğun olaraq, əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək tank bölmələri təyin olunan məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar icra edirlər.

* * *

Genişmiqyaslı təlimlərin planına əsasən "Həyəcan" siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılır.

Qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq, gizli və operativ şəkildə həyata keçirilir. Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.

# Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilib






Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Yeni hərbi hissələr istifadəyə verilir, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması diqqətdə saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu sahədə görülən işlərin davamı olaraq martın 9-da Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilib. Ali Məclisin Sədri təlim mərkəzində yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, təlim mərkəzi şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində bütün zəruri vasitələrlə təmin edilib. Ərazidə yeni yaşayış və xidmət binası inşa olunub, lazımi şərait yaradılıb. Binada rabitə, ideoloji, yataq, yemək və texniki otaqlar istifadəyə verilib. Təlim mərkəzində maneələr zolağı və təlim idarəetmə məntəqəsi yaradılıb, yollar çəkilib, yaşıllıq zolağı salınıb.

Səhra təlimlərinin keçirilməsi üçün ərazidə yeni düşərgə də qurulub. Düşərgədə şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması üçün tədbirlər görülüb, yataq yerləri və məişət guşələri istifadəyə verilib. Yaradılan şərait istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirib, xidmətin təşkili ilə bağlı tapşırıqlar verib.

# Darıdağ arsenli su müalicə və istirahət kompleksi inşa olunacaq

Naxçıvanda müalicə turizminin inkişafına geniş diqqət yetirilir. Bu sahədəki imkanlardan səmərəli istifadə olunur, yeni müalicə mərkəzləri fəaliyyətə başlayır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksi yaradılacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tikinti aparılacaq əraziyə gəlib, kompleksin layihəsinə baxıb.



Məlumat verilib ki, Darıdağ arsenli su dünyada ən zəngin və güclü mineral tərkibi olan müalicəvi sudur. Bu suyun bir çox xəstəliklərin müalicəsində faydalı olması kliniki təcrübələrdə də sübut olunub. Ona görə də Darıdağ arsenli sudan müalicə məqsədilə geniş istifadə olunması diqqətdə saxlanılır. Bu məqsədlə ərazidə yeni kompleks inşa olunacaq, 4 mərtəbədən ibarət əsas korpusda hotel və xidmət sahələri yaradılacaqdır. Burada qadın və kişilər üçün ayrı-ayrı müalicə hovuzları istifadəyə veriləcək, turistlərin istirahəti üçün lazımi şərait yaradılacaqdır. Ali Məclisin Sədri tikinti işlərinə başlanılması ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

# DTX Rusiya təyyarəsinin Bakıya məcburi eniş etməsi ilə bağlı məlumat yayıb

Martın 11-də saat 14:15-də Azərbaycan Respublikasının hava məkanından keçməklə "Bəhreyn-Moskva" marşrutu üzrə uçuş edən Rusiya Federasiyasının "Uralskiye Avialinii" aviaşirkətinə məxsus "Aerobus 321" tipli təyyarədən Heydər Əliyev Beynəlxalq Hava Limanının dispetçer məntəqəsi ilə əlaqə saxlanılaraq, gövdəsində 222 sərnişinin və ekipaj üzvünün olduğu hava gəmisinin salonunda partlayıcı vasitə olmasına dair yazının aşkar edildiyi barədə məlumat verilib, təyyarə hava limanına məcburi eniş edib.

Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətindən (DTX) AZƏRTAC-a bildiriblər ki, mövcud beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, hadisə ilə əlaqədar kompleks təxirəsalınmaz prosedur tədbirlərə başlanılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə yaradılmış Qərargahın sədri - Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev, Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov və digər aidiyyəti dövlət orqanlarının məsul şəxsləri hava limanına gəliblər.

Müvafiq tədbirlər çərçivəsində hava gəmisinin sərnişinləri və ekipaj üzvləri çevik təxliyə olunub, zəruri şəraitlə təmin edilib, psixoloji və digər yardıma ehtiyacı olanlara xüsusi diqqət göstərilib. Hüquq mühafizə orqanlarının mütəxəssislərindən ibarət əməliyyat-istintaq qrupu və xüsusi təyinatlı heyət tərəfindən texniki, kinoloji və digər vasitələrdən istifadə etməklə təyyarədə kompleks antiterror yoxlamaları aparılıb, hava gəmisinə baxış keçirilib, hadisənin səbəbi ilə əlaqədar hərtərəfli araşdırmalara başlanılıb. Nəticədə təyyarədə partlayıcı maddə və qurğuların olmadığı müəyyənləşdirilib, hadisənin səbəbi ilə bağlı əldə edilməsi təxirəsalınmaz olan məlumatlar toplanılaraq rəsmiləşdirilib.

Hazırda hava gəmisinin sərnişinləri və ekipaj üzvləri müvafiq qaydada yerləşdiriliblər. Təyyarənin ən qısa zamanda təyinat nöqtəsi üzrə uçuşu təmin ediləcək. Beynəlxalq hava limanı ştat rejimində fəaliyyətini davam etdirir.

# Ekoloji təhlükəsizlik qanunvericiliyini pozanları yeni cəzalar gözləyir

Martın 11-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirildi. İclasda Milli Məclis Sədrinin müavini, komitənin sədri Valeh Ələsgərov gündəliyə daxil olan qanun layihələrini təqdim etdi.

İclasda iştirak edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hüquq şöbəsinin müdiri Teymur Şəkərəliyev əvvəlcə "Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi barədə (birinci oxunuş) məlumat verdi.

Bildirildi ki, qanun layihəsi "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 2018-ci il 12 iyun tarixli 1175-VQ nömrəli qanunun icrası məqsədi ilə hazırlanıb.

Su Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən suların vəziyyətinə təsir edən müəssisələrin, qurğuların və digər obyektlərin tikinti layihələrinin ətraf mühitə təsirinin qiymətləndirilməsi həyata keçirilməlidir.

İclasda, həmçinin "Meliorasiya və irriqasiya haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Balıqçılıq haqqında", "Elektroenergetika haqqında" və "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş), "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) , eləcə də "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) müzakirə edildi.

Qeyd edildi ki, "Su təchizatı və tullantı suları haqqında" qanuna təklif olunan dəyişiklik şəhərlərin su təchizatı və kanalizasiya sistemləri kompleksinin layihələndirilməsi zamanı strateji ekeoloji qiymətləndirilməsinin aparılmasını nəzərdə tutur. "İnformasiya əldə etmək haqqında" qanunda isə dəqiqləşdirmə xarakterli düzəliş edilir.

"İctimai iştirakçılıq haqqında" qanunda ictimai dinləmə və ictimai müzakirənin təşəbbüsçüsü sırasına hüquqi şəxslər əlavə edilir. İctimai şuraların səlahiyyətləri sırasına ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) və strateji qiymətləndirilməsi (SEQ) ilə bağlı ictimai dinləmə təşkil etmək səlahiyyəti daxil edilir.

Son olaraq, "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikası qanunlarında dəyişiklik edilməsi barədə" (birinci oxunuş) və "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihələri də müzakirə edildi.

Bildirildi ki, "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanuna təklif olunan dəyişikliklər, həmçinin hansı hallarda ətraf mühitə təsirin qiymətləndirilməsinin tələb olunmadığı, yenidən ətraf mühitə dair təsirin qiymətləndirilməsinin həyata keçirildiyi halları, eyni zamanda transsərhəd təsirlərin qiymətləndirilməsi ilə bağlı məsələləri tənzimləyir.

Qeyd edildi ki, "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə edilən dəyişikliyə əsasən, ekoloji təhlükəsizlik haqqında qanunvericiliyin pozulmasına görə yeni cəzalar müəyyənləşib. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinin 275-ci (Ekoloji təhlükəsizlik haqqında qanunvericiliyin pozulması) maddəsinə yeni 275.3-cü bənd əlavə edilir.

Yeni sənədə əsasən, ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirilmə sənədlərinə qiymətləndirici tərəfindən bilə-bilə yalan rəyin verilməsinə görə 250 manatdan 450 manatadək məbləğdə cərimə nəzərdə tutulur.

İclasda iştirak edən deputatlar qanun layihələrini yüksək qiymətləndirdi və layihələrin hər biri Milli Məclisin plenar iclasına tövsiyə edildi.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan".***

# Küveyt Azərbaycanın hər bir uğuruna sevinir

Azərbaycanda səfərdə olan Küveyt Dövləti Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərindən ibarət nümayəndə heyəti dünən Milli Məclisdə Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüblər.

Görüşdə iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətlərindən, parlamentlərimizin əlaqələrinin daha da möhkəmləndirilməsindən danışıldı.

Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, deputat Hüseynbala Mirələmov iki ölkə arasındakı mövcud olan dostluq münasibətlərinə toxunaraq Azərbaycanın tarixi haqqında qonaqlara məlumat verdi. Bildirdi ki, 1992-93-cü illərdə Azərbaycan "batan gəmi" idi, ulu öndər Heydər Əliyevin sayəsində xilas edildi və indi Azərbaycan gündən-günə inkişaf edir.

Küveyt Dövləti Millət Məclisinin Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Xalid Əl-Uteybi də öz növbəsində Azərbaycan və Küveyt dostluğunun dərin mədəni köklərə söykəndiyini vurğuladı. Bildirildi ki, iki ölkə arasında iqtisadi, siyasi, mədəni sahələrdə əlaqələr yüksək səviyyədə inkişaf edir. Mövcud ticari əlaqələrin səviyyəsinin daha da inkişaf etdirilməsi arzuolunandır.

Xalid Əl-Uteybi qeyd etdi ki, Azərbaycan hər zaman beynəlxalq təşkilatlar çərçivəsində Küveytin mövqeyini dəstəkləyir. Küveyt də öz növbəsində Azərbaycana öz dəstəyini əsirgəmir, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarıdır.

Qonağın sözlərinə görə, Azərbaycanın həyata keçirdiyi beynəlxalq tədbirlər onun dünyadakı nüfuzunu daha da artırır və Küveyt Azərbaycanın bu uğurlarına görə çox sevinir.

Daha sonra Myanmarda Rohingya müsəlmanları və Çində Uyğur türklərinin faciəsinə toxunan Xalid Əl-Uteybi söylədi ki, Azərbaycan və Küveyt işğala məruz qalmış ölkələr olaraq onları daha yaxşı başa düşə və regional təşkilatlarda bu müsəlmanlara yardım ifadə etmək üçün birgə addımlaya bilər. Onun sözlərinə görə, İslam dünyası öz məsələlərini özü həll etməlidir və qeyri-müsəlman ölkələrinə ümid bağlamamalıdır.

Deputat Hüseynbala Mirələmov da öz növbəsində qonağın fikirlərini dəstəkləyərək müsəlman dünyasının vahid şəkildə birləşməsinin vacibliyini vurğuladı.

***"Azərbaycan"***

# Azərbaycan 10 milyonuncu vətəndaşını gözləyir

Azərbaycan 10 milyonuncu vətəndaşının yolunu gözləyir. Əhalinin sayı getdikcə bu rəqəmə yaxınlaşmaqdadır. Belə ki, cari il yanvarın 1-i vəziyyətinə əhalinin sayı 9 milyon 981 min 457 nəfər olub.



Hesablamalar göstərir ki, bu il martın sonunda, yaxud aprelin əvvəlində ölkənin 10 milyonuncu vətəndaşı dünyaya gələcək. Bu barədə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov məlumat verib.

Azərbaycanda əhali təbii yolla çoxalır. Yəni doğulanların sayı dünyasını dəyişənlərin sayını üstələyir. Son illərdə əhalinin artmasına müəyyən dərəcədə miqrasiya saldosunun müsbət olması - ölkəyə daimi yaşamağa gələnlərin buradan biryolluq köçənlərdən çox olması da təsir göstərir.

Dünyasını dəyişənlərin sayına gəldikdə, ölümün səviyyəsi əhalinin hər 1000 nəfərinə hesabı ilə 5,8 təşkil edir. Keçən il ölkədə 57 min 250 ölüm halı qeydə alınıb.

Doğumun səviyyəsi isə hər 1000 nəfərə 14,2 təşkil edir. İl ərzində 138 min 982 uşaq dünyaya gəlib. O cümlədən 1376 ailə əkiz, 117 ailə isə üçəm övladla sevinib.

Doğulan körpələrin arasında qızların xüsusi çəkisi 46,6 faiz təşkil edir. Bunun nəticəsidir ki, anadan olan hər 100 qıza 115 oğlan düşür. Bioloji norma isə 105-107-dir. Oğlanlarla qızların sayı arasında təbii tarazlığın pozulmasına səbəb məlum süni müdaxilələrdir.

2018-ci ildə Azərbaycana daimi yaşamaq üçün 3220 nəfər gələn, ölkədən 1580 gedən qeydə alınıb.

Beləliklə, əhali 83 min 372 nəfər, yəni 0,8 faiz artıb.

Dövlətin sosial siyasəti həm də bu artıma hesablanır. Bu, yalnız yeni doğulanlara görə hər ailəyə verilən müavinətlərlə, çoxuşaqlı analara ödənilən aylıq vəsaitlə, uşaqların və qadınların sağlamlığına yönəldilən və digər bu kimi tədbirlərlə məhdudlaşmır. Getdikcə artan əhalinin hərtərəfli ehtiyacını qarşılamaq üçün genişmiqyaslı işlər həyata keçirilir. Bu, uşaq bağçaları və məktəblərin, müalicə ocaqlarının, idman komplekslərinin şəbəkəsinin genişləndirilməsi, ərzaq bolluğu yaradılması, iş yerlərinin açılmasına yönəldilən tədbirlərdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransdakı nitqində Prezident İlham Əliyev bu barədə demişdir: "Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılmışdır. Əhalinin sayı isə 1,6 milyon artmışdır. Bu da çox gözəl göstəricidir. Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətli getsin, artan əhali işlə təmin olunsun".

Necə deyərlər, Azərbaycan dünyaya gələn vətəndaşlarını əliboş qarşılamır. Onların xoşbəxt sabahı üçün indidən geniş tədbirlər görür. Əhalimiz də artır və biz indi artıq yaxın günlərdə dünyaya göz açacaq 10 milyonuncu vətəndaşın yolunu gözləyirik.

Paytaxtdamı doğulacaq, bölgədəmi, - fərq etməz, - qurub-yaradan, gündən-günə inkişaf edən bir ölkənin vətəndaşı olacaq.

Oğlan olacaq, yoxsa qız? Hər ikisi əzizdir. Biri düşmən sipəri, torpağı, vətəni qoruyan, digəri bir sona, gələcəyin anasıdır.

Hansı ailədə doğulacaq? Bunun da fərqi yoxdur. Mentalitetimiz belədir ki, doğulan hər körpə təkcə ata-anasının, nənə-babasının deyil, bütün el-obanın sevincidir. Odur ki, yolunu gözləyirik, 10 milyonuncu vətəndaş!

***Flora SADIQLI, "Azərbaycan"***

# Dövlət sərhədinin pozulması cəhdinin qarşısı alınıb











Martın 10-da saat 06:50 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Bala Bəhmənli kəndinin yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədinin pozulmasına cəhd edilib.

Dövlət Sərhəd Xidmətindən bildirilib ki, sərhəd naryadı tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində silahlı şəxslərin hərəkəti aşkar olunaraq qarşısı alınıb.

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində olan sərhəd naryadının qanuni tələbinə və xəbərdarlıq atəşinə tabe olmayan sərhəd pozucuları tərəfindən sərhəd naryadına qarşı silah tətbiq edilib.

Baş vermiş atışma zamanı sərhəd naryadının başçısı Daşkəsən rayonundan həqiqi hərbi xidmətə çağırılmış kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu sinəsindən güllə yaraları almış, sərhəd naryadının üzvü Siyəzən rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Cəbrayılov Vidadi Xəlifəqulu oğlu əlindən yaralanmışdır. Hər iki sərhədçi dərhal hərbi hospitala təxliyə olunsa da, kiçik çavuş S.Məmmədovun həyatını xilas etmək mümkün olmamışdır.

Dövlət sərhədini pozmağa müvəffəq ola bilməyən sərhəd pozucuları geri qaçmışlar.

Hadisədən dərhal sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və digər vəzifəli şəxslər əraziyə gəlmiş, hadisə yerinə baxış keçirmiş, əməliyyat-axtarış tədbirlərinin davam etdirilməsinə dair zəruri tapşırıqlar vermişdir.

Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti dövlət sərhədini mühafizə edərkən qəhrəmancasına həlak olmuş kiçik çavuş S.Məmmədovun atası ilə görüşmüş və başsağlığı vermişlər.

Dövlət Sərhəd Xidmətinin rəisinin əmri ilə kiçik çavuş Məmmədov Səxavət Fizuli oğlu (ölümündən sonra) və əsgər Cəbrayılov Vidadi Xəlifəqulu oğlu xidməti vəzifələrinin icrasında göstərdikləri şücaətə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunmuşlar.

Hadisə ilə əlaqədar Hərbi Prokurorluqla birlikdə zəruri tədbirlər həyata keçirilir. Fakt üzrə cinayət işi başlanılmışdır.

***"Azərbaycan"***

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Təhsil naziri Ceyhun Bayramov Ağcabədi şəhərindəki Bayraq Muzeyində Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Xocavənd və Laçın rayon sakinlərini qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun keçirilən qəbulda Tərtər, Ağdam, Füzuli və Ağcabədi rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Ceyhun Bayramov qəbula yazılmış vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşların müraciətləri əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, təhsil sənədlərinin tanınması və digər məsələləri əhatə edib.

* * *

Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda əhalinin qəbulu keçirilir. Mədəniyyət naziri Əbülfəs Qarayevin vətəndaşlarla növbəti görüşü martın 11-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd klubunda reallaşıb.

Qəbulda Beyləqan, Cəbrayıl, İmişli, Füzuli və Xocavənd rayonlarından olan vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbulda müraciətlərin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

# İsmayıllılar üçün də pulsuz tibbi müayinə təşkil edilib

İsmayıllı Rayon Mərkəzi Xəstəxanasında dövlətin əhali üçün yaratdığı şansdan bəhrələnməyə çalışırlar. Növbəlilik əsasında hər kəs sağlamlığı ilə bağlı problemini aradan qaldırmaq üçün həkimin qəbuluna tələsir.







Rayon mərkəzi xəstəxanasının baş həkiminin müavini Abdullətif Maqsudovla söhbət zamanı bildirdi ki, fevralın 12-dən başlayaraq Prezident İlham Əliyevin tapşırığına və Səhiyyə Nazirliyinin müvafiq sərəncamına uyğun respublikamızda əhalinin tibbi müayinələrdən keçirilməsinə başlanılıb. Bununla əlaqədar rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov da fevral ayının 6-da sərəncam verib. Həmin sərəncamla tibbi müayinənin nümunəvi təşkili ilə bağlı tədbirlər müəyyənləşdirilib. RİH başçısının sədrliyi ilə komissiya yaradılıb, işçi qruplarının tərkibi müəyyənləşdirilib, qrafik tərtib edilib.

Yaradılan komissiyanın iştirakı ilə 9 fevral 2019-cu il tarixdə rayon icra hakimiyyətində keçirilən müşavirədə tibbi müayinənin əhəmiyyəti və mahiyyətindən, bu sahədə icra strukturlarının üzərinə düşən vəzifələrdən, bunun xalqa xidmətin gərəkli yolu olduğundan ətraflı bəhs edilib.

Rayon mərkəzi xəstəxanasının baş həkimi Aydın Əsədov qeyd edib ki, bütün tibb müəssisələri müayinə üçün tam hazır vəziyyətə gətirilib. Komissiyanın sədr müavini, RİH başçısının müavini Sevil Əhmədova iştirakçıları tibbi müayinə qrafiki ilə tanış edib, mayın 1-dək davam edəcək tibbi müayinə və dispanserizasiyasının yüksək səviyyədə həyata keçiriləcəyini bildirib.

Məlumat verildi ki, son günlərədək 16 min nəfərə yaxın ismayıllılı tibbi müayinə ilə bağlı müraciət edib və onlar ixtisaslı həkimlər tərəfindən müayinə ediliblər. Onlardan 435-i ambulator, 127-si stasionar, 12 nəfəri isə Bakı şəhərindəki ixtisaslaşmış sağlamlıq ocaqlarında müalicəyə cəlb olunub.

Əhalinin tibbi müayinəsi zamanı mütəşəkkilliyin təmin olunması nəzərdə tutulub. Bu məqsədlə 16 həkim məntəqəsi yaradılıb. Əsas üstünlük həkim məntəqələrinə, poliklinikalara və xəstəxanalara verilib. 18 yaşdan yuxarı 61 min 832 nəfərlik əhali kampaniya müddətində müayinə ediləcək.

Kəskin respirator xəstəlikdən əziyyət çəkənlərdən Nərmin Ələsgərova Aşağı Zərnava kəndindən gəlib. İnanır ki, həkimlərin səyləri nəticəsində tezliklə əvvəlki sağlamlığına qovuşacaq.

Arizə Həmidova Talıstan kəndindəndir. III qrup əlildir. Məqsədi ümumi müayinə olunmaqdır. Əvvəlki pulsuz tibbi müayinələrdə də yaradılan imkandan bəhrələndiyini deyir.

Hənifə Əliyeva isə əslən Laçın rayonunun Şeylanlı kəndindəndir. Məcburi köçkün kimi İsmayıllı rayonunun Qalınçaq kəndində məskunlaşıb. İnanır ki, keçirilən müayinənin nəticələrinə uyğun aparılan müalicə kömək edəcək və tezliklə sağlamlığına qovuşmaq imkanı əldə edəcək.

***Əli SƏLİMOV, "Azərbaycan"***

# Dəyərli alim ömrü

Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrindən biri, vətəndaş-alim akademik Asəf Abbasqulu oğlu Nadirov yaşasaydı 90 yaşı tamam olacaqdı. 1929-cu il mart ayının 13-də qədim və zəngin tarixi, mədəniyyət və çox əsirlik dövlətçilik ənənəsi olan Naxçıvanın Şərur bölgəsinin Cəlilkənd kəndində pak əməlləri, vətənpərvərliyi və yüksək insani keyfiyyətləri ilə dərin hörmət qazanmış, el ağsaqqalı Abbasqulu kişinin ailəsində dünyaya göz açmışdı.



Ağlı, zəkası və zəhmətsevərliyi ilə Azərbaycan Elmlər Akademiyasında çalışdığı 62 il ərzində pillə-pillə yüksələrək kiçik elmi işçi vəzifəsindən AMEA-nın akademik-katibi vəzifəsinə, coğrafiya elmləri namizədliyindən iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi kimi yüksək vəzifəyə, elmi adlara və rütbələrə yiyələnmişdir. O, yüksəldikcə sadələşmiş, xalqının və bütün dost-tanışlarının sevimlisinə çevrilmişdir.

Professor Asəf Nadirov bütünlüklə həyatını doğma Azərbaycanın elminə və təhsilinin inkişafına sərf etmişdir. O, 1936-cı ildə Yenicə kəndindəki orta məktəbə daxil olmuş və 1946-cı ildə oranı bitirib Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinə qəbul olmuşdur. 1951-ci ildə universiteti əla qiymətlərlə başa vuran Asəf Nadirov coğrafiya kafedrasında assistent vəzifəsində saxlanmışdı. Ancaq az sonra o, gənc mütəxəssis kimi diqqəti cəlb etmiş və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti yanında respublika inzibati-ərazi bölgüsü üzrə məsləhətçi vəzifəsinə irəli çəkilmişdir. 1952-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunun aspiranturasına daxil olmuş və 1953-cü ildə təhsilini davam etdirmək üçün Moskva şəhərinə - SSRİ Elmlər Akademiyası Coğrafiya İnstitutuna ezam olunmuş Asəf Nadirov görkəmli alimlərin çalışdığı bu elm ocağında coğrafiyanın sirlərinə yiyələnmiş və 1956-cı ildə həmin ali təhsil müəssisəsində "Naxçıvan MSSR: iqtisadi-coğrafi səciyyəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, 27 yaşında coğrafiya elmləri namizədi elmi dərəcəsi almışdır.

Gənc mütəxəssis elə həmin il Bakı şəhərinə qayıtmış və bir müddət Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunda kiçik elmi işçi vəzifəsində işlədikdən sonra Akademiyanın İqtisadiyyat sektoruna kiçik elmi işçi vəzifəsinə işə keçərək, burada elmi fəaliyyətə başlamış və ömrünün sonunadək bu elm ocağı ilə əlaqəsini kəsməmişdir.

Akademik A.Nadirov bütün bu vəzifələrdə işləyərkən böyük elmi-yaradıcılıq qabiliyyətinə malik olduğunu sübut etmiş, geniş ictimai-siyasi və təşkilati iş aparmış, elmi kadrların seçilməsi, hazırlanması və yerləşdirilməsində müstəsna rol oynamışdır. Akademik, eyni zamanda,1996-2006-cı illərdə ictimai əsaslarla Azərbaycan EA İqtisadiyyat İnstitutunda regionların inkişafı ilə bağlı şöbədə yerinə yetirilən elmi-tədqiqat işlərinə elmi rəhbərlik etmişdir. O, 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü (akademik) seçilmişdir.

Akademik hələ iqtisadi coğrafiya sahəsindəki tədqiqat əsərlərinə görə SSRİ Coğrafiya Cəmiyyətinin fəxri fərmanı, fəxri diplomu ilə təltif edilmiş, SSRİ Coğrafiya Cəmiyyətinin VIII Qurultayına nümayəndə seçilmişdir. Ancaq A.Nadirovun bütün elmi yaradıcılıq fəaliyyətinin ana xəttini Azərbaycan sənayesinin inkişafı, onun sahə və ərazi quruluşunun təkmilləşdirilməsi və səmərəliliyi təşkil etmişdir.

Akademik A.Nadirov hələ özünün ilk tədqiqatlarında respublikada ipəkçiliyin və ipək sənayesinin səmərəli inkişafı üçün geniş təbii imkanların, əmək resurslarının, əhalinin böyük istehsal təcrübəsi və tarixi ənənələrinin mövcud olduğunu əsaslandırmışdır. Azərbaycanda qənd istehsalının yaradılması ideyasını da ilk dəfə A.Nadirov irəli sürmüşdür.

Keçən əsrin 60-cı illərinin əvvəllərində A.Nadirovun rəhbərliyi və fəal iştirakı ilə Azərbaycanın yeyinti sənayesinin inkişafı və onun ölkə ərazisində düzgün yerləşdirilməsi problemləri kompleks halında tədqiq olunmuşdu.

Apardığı gərgin elmi-tədqiqat işlərinin nəticəsi olaraq A.Nadirov 1968-ci ildə "Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri" mövzusunda elmlər doktorluğu dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir. Həmin dissertasiya işində irəli sürülüb və əsaslandırılmış elmi müddəalar, təklif və tövsiyələrin bir çoxu istehsalatda öz tətbiqini tapmış və bu gün də öz aktuallığını itirməmişdir. A.Nadirov keçən əsrin 70-ci illərində öz tədqiqatlarını daha da dərinləşdirmiş və 1976-cı ildə nəşr etdirdiyi "Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri" adlı böyük həcmli monoqrafiyasında ümumiləşdirmişdir.

A.Nadirov həmin əsərində respublikadaxili iqtisadi rayonlarda sənayenin inkişaf səviyyəsinin müəyyən edilməsi metodikasını, sənaye sahələrinin iqtisadi təyinatına görə qruplaşdırılması və inkişaf səviyyəsinin müəyyən edilməsi üsullarını vermiş, iqtisadi rayonlarda sənayenin gələcəkdə daha səmərəli yerləşdirilməsi və inkişafı üçün elmi, təcrübəvi və əhəmiyyəti olan bir sıra təklif və tövsiyələr irəli sürmüşdür. Keçən əsrin 90-cı illərinin əvvəllərində isə respublikanın iqtisadi rayonlaşmasının təkmilləşdirilməsi məsələsi A.Nadirovun yaxından iştirakı ilə Azərbaycan EA İqtisadiyyat və Coğrafiya İnstitutlarının, İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzinin və başqa müvafiq elm və tədris müəssisələrinin yüksəkixtisaslı mütəxəssisləri ilə birlikdə müzakirə olunmuş və bir sıra təkliflər verilmişdir.

Alimin tədqiqat əsərlərində respublikada sənayenin tarixi inkişaf mərhələləri də müəyyən edilmiş və müxtəlif xarakterli zəngin statistik materialların sistem halında təhlili əsasında hər bir mərhələdə onun ərazi üzrə yerləşməsi və inkişafı vəziyyəti qiymətləndirilmişdir. Müəllif belə bir həqiqəti sübut etmişdir ki, Azərbaycan sənayesinin iqtisadi rayonlarda inkişafında əsas irəliləyiş Böyük Vətən müharibəsindən sonrakı dövrdə, xüsusilə də keçən əsrin 70-80-ci illərində baş vermişdir.

Onun əsərlərində respublika sənayesinin yaxın və uzaq gələcəkdə iqtisadi rayonlar üzrə daha dərindən ixtisaslaşması və optimal yerləşdirilməsi istiqamətləri işıqlandırılan əsərlərində bu problemlə bağlı bir sıra məsələlərin həllinə aid mülahizələr öz dolğun əksini tapmışdır. O, keçən əsrin 80-ci illərində "Azərbaycan SSR-də Elmi-Texniki Tərəqqinin Kompleks Proqramı və onun sosial-iqtisadi nəticələri"nin işlənib hazırlanmasının əsas rəhbərlərindən və icraçılarından biri olmuşdur.

O, keçən əsrin sonlarında bir sıra əsərlərində Azərbaycan iqtisadiyyatının düşdüyü dərin böhranlı vəziyyətin təhlilinə, onun səbəbləri və xarakterinin açılmasına xüsusi yer vermişdir. Ömrünün son illərində apardığı elmi-tədqiqat işlərində, dövri mətbuatda çap etdirdiyi məqalə və nəşr olunan kitablarında Azərbaycanın gələcək iqtisadi inkişafına bir baxış, iqtisadi islahatların Çin yolu, mülkiyyət münasibətlərinin formalaşması, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, bu istiqamətdə neft müqavilələrinin mahiyyət və əhəmiyyətinin açılması, iqtisadiyyatın gələcək inkişaf yollarının müəyyənləşdirilməsi, iqtisadi islahatlar sahəsində qabaqcıl ölkələrin təcrübəsindən istifadə edilməsi və sair aktual məsələlər mühüm yer tutmuşdur.

Akademik Asəf Nadirovun 2001-ci ildə çap edilmiş "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri" adlı monoqrafiyası, həmçinin "Azərbaycan iqtisadiyyatı" (Kollektiv monoqrafiya. Xaricdə yaşayan azərbaycanlılar üçün) adlı kitab da maraqlı tədqiqat əsəri kimi diqqəti cəlb edir.

Akademik Azərbaycanın iqtisad elminin aktual nəzəri-metodoloji və təcrübi problemlərinin tədqiqinə həsr olunmuş 500-dən çox elmi əsərin, o cümlədən 20 monoqrafiya, kitab və broşürün müəllifidir. Bu əsərlərin bir qismi keçmiş ittifaqda və başqa xarici ölkələrdə nəşr olunmuşdur.

Akademik A.Nadirovun yüksəkixtisaslı elmi kadrların hazırlanması sahəsində də əvəzsiz xidmətləri olmuşdur. Onun elmi rəhbərliyi ilə 6 elmlər doktorluğu və 40-dan çox iqtisadiyyat və iqtisadi coğrafiya üzrə fəlsəfə doktorluğu dissertasiyası işləri müdafiə olunmuşdur. Uzun illər ərzində bir çox ictimai vəzifələrin yerinə yetirilməsində də fəal iştirak etmiş akademik 1966-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının "İqtisadiyyat" seriyasının baş redaktorunun müavini, baş redaktoru, Azərbaycan EA İqtisadiyyat İnstitutunun nəzdindəki Dissertasiya Şurasının sədr müavini, sədri, Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü, həmçinin SSRİ EA Regional İqtisadiyyat Elmi Problem Şurasının, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, elm və texnika sahəsində Azərbaycanda Dövlət mükafatlarının verilməsi üzrə komitənin, 2000-ci ildən ömrünün sonunadək isə "Obşestvo i ekonomika" adlı beynəlxalq elmi jurnalın redaksiya heyətinin üzvü olmuşdur.

A.Nadirov görkəmli tədqiqatçı alim olmaqla bərabər, həm də elmi işləri tədrislə sıx əlaqələndirməyi bacaran bacarıqlı müəllim idi. O, Bakı Dövlət Universitetində və bir sıra digər auditoriyalarda iqtisadiyyat və coğrafiya fənlərindən mühazirələr oxumuş, ali məktəblər üçün bir sıra dərsliklərin yazılmasında müəllif kimi iştirak etmiş və bəzilərinin elmi redaktoru olmuşdur. O, həm keçmiş ittifaq respublikalarında, həm də bir çox xarici ölkələrdə (Fransa, Hindistan, Türkiyə, İran, Almaniya...) keçirilən beynəlxalq simpozium və elmi konfranslarda Azərbaycanın iqtisad və iqtisadi coğrafiya elmini layiqincə təmsil etmişdir. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq, regional və respublika elmi forum, simpozium və konfranslarının əsas təşkilatçılarından biri olmuş, maraqlı məruzələrlə çıxış etmişdir.

Alimin elmi yaradıcılığında Naxçıvan Muxtar Respublikasının iqtisadi coğrafiyasına həsr olunmuş tədqiqatları da əhəmiyyətli yer tutur. O, Heydər Əliyev İqtisadi İdarəetmə Məktəbinin Elmi-Metodiki Şurasının sədri olmuşdu.

Onun xidmətləri həm keçmiş SSRİ dövründə, həm də müstəqillik illərində dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Əmək rəşadətinə görə" medalı, Azərbaycan LKGİ MK-nin fəxri fərmanları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı, Gürcüstan SSR "Bilik" Cəmiyyətinin fəxri fərmanı, SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Xalqlar dostluğu" ordeni, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Əmək veteranı" medalı, Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə Azərbaycanda elmin inkişafındakı xidmətlərinə görə 2004-cü ildə "Şöhrət", 2009-cu ildə isə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Akademik A.Nadirov 2014-cü il mart ayının 13-də - ömrünün 85-ci ilinin tamam olduğu gün qəflətən vəfat etmişdir. Onun alim dostları, həmkarları xalqının böyük oğlu olmuş bu görkəmli alimi, böyük vətəndaş və nəcib insanı, gözəl ailə başçısını heç zaman unutmayacaq.

***Şahbaz MURADOV,***
***AMEA-nın müxbir üzvü,***
***əməkdar elm xadimi***








# Dünyanın ilk neft jurnalı

1898-ci ildə Bakı Neft Sənayeçiləri Qurultayları Şurası ilk nəşrini - "Neftyanoe Delo" ("Neft işi") qəzet-jurnalını təsis etdi. Mətbu orqanın ilk sayı rus dilində 1899-cu il yanvarın 10-da işıq üzü gördü. Beləliklə, bu jurnal nəinki Bakıda, bütövlükdə dünyada neft sənayesinin nailiyyətləri və problemlərini işıqlandıran ilk sahə mətbu orqan oldu.

Azərbaycanda sovet hakimiyyəti qurulanadək jurnal ayda iki dəfə nəşr edilirdi. "Neft işi" (Nİ) jurnalının ilk sayında dərc olunan "Redaksiyadan" adlı müraciətdə qeyd olunurdu ki, bu nəşr bütövlükdə neft sənayesinin problemlərini və ehtiyaclarını, habelə bu və ya digər şəkildə onunla bağlı olan məsələləri əks etdirəcək, neft hasilatı, neft və neft məhsullarının sərf olunması və paylanması, həmçinin neftayırma zavodlarının işi barədə məlumatları dərc edəcək. Habelə neft hasilatının və emalının texniki və iqtisadi tərəflərinə, onun nəqlinə, saxlanmasına və satışına, neft sənayesinin buxar gəmiçiliyi ilə əlaqələrinə, Rusiya (Bakı) və xarici neft bazalarının vəziyyətinin təhlilinə də geniş yer ayrılırdı.

Nİ aparıcı mütəxəssislərin və mədən mühəndislərinin elmi məqalələr toplusuna, bir növ neft sorğu kitabçasına çevrilmişdi. Qəzet-jurnalın ilk saylarından birində Rusiya neft sənayesinə xarici sərmayə qoyuluşu barədə əhatəli analitik məqalə dərc olunmuşdu.

Qəzet-jurnalın səhifələrində sırf neft-qaz sahəsindəki elmi və iqtisadi problemlərlə yanaşı, Rusiyada (o cümlədən Azərbaycanda) və xaricdə neftmədən geologiyası məsələlərinə, Qafqazda və Abşeronda neft ehtiyatlarının vəziyyətinə, habelə Volqaboyu, Sibir və Uzaq Şərqdə yeni neft rayonlarının mənimsənilməsinin perspektivlərinə xüsusi diqqət yetirilirdi.

Burada müntəzəm olaraq Bakı Neft Sənayeçiləri Qurultaylarının stenoqrafik hesabatları, habelə ildə bir dəfə Rusiya imperiyasının neft sənayesinin əsas aparıcı gücü kimi "Bakı neft sənayesinin xülasələri" dərc olunurdu. Dünyada neft işinin tarixini öyrənən xarici mütəxəssislərin əksəriyyətinin etiraf etdiyinə görə, məhz Neft Sənayeçiləri Qurultaylarının Bakı nəşrinin ("Neft işi" və "Bakı neft sənayesinin xülasələri") nümunəsi əsas götürülərək gələcəkdə dünyanın bir çox ölkələrində neft statistikasının hazırlanması və işlənməsi prinsipləri müəyyənləşdirilmişdir.

Maraqlıdır ki, jurnalın ayrı-ayrı bölmələrində Bakı Neft Sənayeçiləri qurultaylarında sosial məsələlərin həllinə xüsusi diqqət yetirilirdi. Həmin bölmələrdə "mədən və zavod rayonlarının hüdudları çərçivəsində daxili məsələləri, o cümlədən fəhlələrin və bütövlükdə qulluqçuların həyat şəraitinin yaxşılaşdırılması, səhiyyə və sanitar işinin təşkili, ölüm halları və ya şikəst olduqda fəhlələrin sığortası, nəqliyyat işinin nizamlanması, habelə su təchizatı, ümumtəhsil məktəblərinin, qiraətxanaların, kitabxanaların yaradılması" məsələləri əks olunurdu.

Qafqazdakı neft nəşrinin özünəməxsusluğu, elm aləmində populyarlığının durmadan artması onun Xəzər regionunun sərhədlərindən kənarda yayılmasına imkan verdi. 1900-cü ildə bu mətbu nəşrin artıq Londonda müxbir bürosu vardı. 1910-cu ildə Rusiyanın bütün iri şəhərlərində abunə məntəqələri fəaliyyət göstərirdi, bir çox yerli və xarici dövri neft nəşrlərilə jurnal mübadiləsi həyata keçirilirdi.

"Neft işi" jurnalında neft sənayesinin əsasını qoyan görkəmli mütəxəssislərin məqalələri çap olunurdu.

Məhz bu jurnalda Peterburqda (1898-ci il) və Bakıda (1904-cü il) təsis olunan və bugünkü ictimaiyyətə az məlum olan Rusiya Nobel mükafatları haqqında tam və dolğun informasiya dərc edilmişdir. Xatırlatmaq yerinə düşərdi ki, Peterburqda təsis edilən, metallurgiya və neft sənayesi sahəsində ən yaxşı tədqiqatlara görə verilən Lüdviq Nobel adına mükafat üç dəfə - 1896, 1898 və 1905-ci illərdə təqdim edilmişdir. Amma Bakıda təsis edilən və neft işi sahəsində ən yaxşı əsərlərə və ixtiralara görə verilən Emanuil Nobel adına mükafat isə dörd dəfə - 1909, 1910, 1911 və 1914-cü illərdə təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, Bakıda verilən mükafat beynəlxalq mükafat hesab olunurdu. Belə ki, mükafatın Nizamnaməsinin 2-ci paraqrafında "həm Rusiya, həm də xarici təbəələr mükafata namizəd ola bilərlər" qeyd olunurdu.

1917-ci il Oktyabr inqilabından sonra "Neft işi" jurnalı Rusiya imperiyasında nəşr olunan əksər jurnallar kimi 1918-ci ilin may ayında bolşeviklərin Xalq Komissarları Bakı Sovetinin qərarına əsasən bağlandı.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ilin sentyabr ayında jurnalın nəşrini bərpa etdi. 1920-ci ilin martında jurnalın əvvəlki adı ilə son nömrəsi çıxdı.

1920-ci ilin may ayında Azərbaycan SSR Xalq Komissarları Şurasının sərəncamı ilə "Neft işi" jurnalının adı dəyişdirilərək "Azərbaycan neft təsərrüfatı" (ANT) adı altında işıq üzü görür.

Bu gün jurnalda üç dildə Azərbaycan, rus və ingiliscə materiallar dərc olunur. Sahə üzrə ən qocaman mətbu orqan olan bu jurnal böyük nüfuz qazanaraq, nəinki respublikamızda, eləcə də onun hüdudlarından kənarda da, yüksək peşəkarlıqlı elmi-texniki və istehsalat informasiya mənbəyi kimi tanınmışdır. Fəaliyyətinin bütün dövrü ərzində jurnal öz səhifələrində olduqca sanballı materiallar toplamış, özünəməxsus kiçik bir ensiklopediya rolunu oynamışdır.

Neft sənayesi sahəsində texniki tərəqqinin çoxsaylı başlıca prioritetlərini əks etdirən materialların dərc olunması məhz ANT jurnalına məxsusdur. Jurnalın müəllif kollektivini neft sənayesi və ona yaxın sahələrdə öz intellektual potensialını sərf edən milli və xarici mütəxəssislər, mühəndis və alimlər təşkil edir.

Jurnal neft sahəsi üçün çoxsaylı, tanınmış, yüksəkixtisaslı kadrlar nəslinin yetişdirilməsində də böyük rol oynayır.

Fəaliyyətə başladığı dövrdən indiyədək jurnalın səhifələrində tanınmış alimlər, mütəxəssislər və istehsalat rəhbərlərinin çoxsaylı elmi-texniki məqalələri dərc olunmuşdur.

Jurnala milli neft sənayesinin fəxri sayılan baş redaktorların böyük bir pleyadası rəhbərlik etmişdir. Bunlardan İ.M.Əsədovu, Ə.C.Əmirovu, M.K.Seyid-Rzanı, A.X.Mirzəcanzadəni və başqalarını göstərmək lazımdır. Müxtəlif vaxtlarda akademiklərdən İ.M.Qubkin, Y.H.Məmmədəliyev redaksiya heyətinin üzvləri olmuşlar.

Bu gün redaksiyanın kollektivi neft sənayesinin aparıcı alim və mütəxəssislərindən ibarət redaksiya heyəti ilə birlikdə jurnalın elmi-texniki səviyyəsini, istiqamətini bundan sonra da qoruyub saxlamaq və daha da inkişaf etdirmək üçün müəllif aktivi ilə böyük və səmərəli iş aparır.

Jurnal Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin bütün müəssisə və təşkilatlarına, sahə elmi-tədqiqat və layihə institutlarına, ali məktəblərə, müştərək müəssisələrə, xarici şirkət və firmalara, eləcə də xarici ölkələrə abunə yazılışı yolu ilə və internet vasitəsilə yayımlanır.

***İbrahim QULİYEV,***
***"Azərbaycan neft təsərrüfatı"***
***jurnalının baş redaktoru, akademik***

# Xidmətdə fərqlənmiş sərhədçi qadınlar mükafatlandırılmışdır





**Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə silsilə tədbirlər keçirilmişdir.**

Martın 7-də Dövlət Sərhəd Xidmətinin Aparatında Dövlət Himninin səslənməsi ilə başlayan tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bayram təbriki sərhədçi qadınlara çatdırılmış, 8 mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

Tədbirdə ulu öndər Heydər Əliyevin qadınların cəmiyyətimizdəki rolunun artmasına, onların maddi rifahının yaxşılaşmasına, uşaqların sağlam böyüməsinə, azərbaycanlı ailələrin xoşbəxtliyinə göstərdiyi diqqət və qayğıdan, bu gün həmin siyasətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsindən, qadınlarımızın müstəqil Azərbaycan dövlətinin inkişafındakı xüsusi xidmətlərindən danışılmışdır.

Gözəllik, sədaqət və ismət rəmzinə çevrilmiş, istedadlı və fədakar Azərbaycan qadınlarının mədəniyyətimizin, xalqımızın milli varlığını müəyyən edən mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanmasında və müasir dövrdə yaşadılmasında əvəzsiz xidmətləri ilə yanaşı, ordu qruculuğunda da fəal iştirak etmələri, vətənimizin sərhədlərinin mühafizəsi kimi çətin və şərəfli vəzifənin yerinə yetirilməsində qadın hərbi qulluqçuların əzmkarlıq göstərməsi, xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlmələri qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinin, ölkəmizin ictimai-siyasi və mədəni həyatının dinamik inkişafına yönəldilmiş əzmkar fəaliyyəti ilə xalqımızın böyük rəğbətini qazanması xüsusi vurğulanmışdır.

Tədbirdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisinin müavini general-leytenant A.Ələkbərov sərhədçi qadınları təbrik etmiş, onlara xoşbəxt və firavan həyat, xidmətdə və şəxsi həyatlarında uğurlar arzulamışdır.

Tədbirin sonunda xidmətdə fərqlənmiş sərhədçi qadınlara mükafatlar təqdim olunmuşdur.

# 3700 dollar ödə, fərarilik et

## Böyük xaosun və tənəzzülün məngənəsində olan Ermənistan ordusunda artıq cinayətlər leqallaşdırılır

*Əvvəli 1-ci səh.*

Layihənin müəlliflərindən olan "Çiçəklənən Ermənistan" partiyasının deputatı Qevorq Qorqisyanın fikrincə, bu təşəbbüs Ermənistandan qaçan 2 mindən çox gəncin ölkəyə geri qayıtmalarına və həbs edilmədən cərimə pulunu ödəmələrinə imkan verəcək. Deputat bildirib ki, hazırda Ermənistanda hərbi xidmətdən yayınan gənclərin sayı 11 mindən çoxdur.

Bir neçə gün bundan əvvəl Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının sədri Andranik Koçaryan hazırda 27-35 yaş arası 3225 vətəndaşın orduda xidmətdən yayındıqlarına görə axtarışda olduqlarını bildirmişdi. Yerdə qalan hərbi xidmətdən qaçan minlərlə insan isə 27 yaş həddinə çatmayan gənclərdir.

### 3700 ABŞ dolları məbləğində cərimə

Parlamentin müdafiə və təhlükəsizlik daimi komissiyasının üzvü Armen Xaçatryan qeyd edib ki, hazırkı vəziyyətə olan məlumatlara əsasən, məcburi hərbi xidmətdən yayınan 10 min erməni gəncin axtarışda olması barədə faktlar mövcuddur.

Xaçatryan deputatları müvafiq layihənin lehinə səs verməyə çağırmaqla qısa xülasə təqdim edib: "2016-2017-ci illər ərzində bu kateqoriyadan olan 625 şəxs Ermənistana qayıdıb və müvafiq qaydada təyin olunan 795 milyon dram vəsait ödənişi həyata keçirilib. Lakin bu layihə problemi təmamilə həll etmir. Daha geniş və hərtərəfli həll sistemi tapılmalıdır. Elə bir həll sistemi lazımdır ki, bu kimi cinayətlərin qarşısını alsın və Ermənistana geri dönüşü təşviq etsin".

Ermənistan qanunvericiliyinə görə, həqiqi hərbi xidmət keçməyən, lakin yaşı 27-yə çatan vətəndaşlar cinayət məsuliyyətindən qaçmaq üçün 1,8 milyon dram və ya 3700 ABŞ dolları məbləğində cərimə ödəməlidirlər. Əks təqdirdə, onlar həbs edilirlər.

Lakin erməni mediası yazır ki, orduda xaos davam etdikcə, ölkədən daha çox sayda gəncin qaçışını gözləmək mümkündür. Hökumətin isə pul müqabilində onları cinayət məsuliyyətindən azad etmək niyyəti hansısa nəticə verməyəcək.

### Bu il 7 hərbi qulluqçu ölüb

Məhz belə bir vaxtda ordu ilə bağlı daha bir qalmaqal üzə çıxıb. Bəlli olub ki, yenə əvvəlki kimi Ermənistan ordusundakı ölüm faktları gizlədilir.

Deyilənə görə, Ermənistan ordusunda 2019-cu il ərzində baş verən 4 ölüm faktı barədə məlumat gizlədilib. Əldə edilən məlumatlarla bağlı rəsmi mövqe öyrənmək üçün cari ilin 1 yanvar-20 fevral tarixləri arasında Ermənistan ordusunda neçə itki olduğu barədə İstintaq Komitəsinə yazılı müraciət edilib. Müraciətə cavab olaraq İstintaq Komitəsindən bildirilib ki, qeyd olunan müddət ərzində hərbi xidmətlə bağlı 3, hərbi xidmətlə bağlı olmayan isə 4 ölüm faktı qeydə alınıb.

Beləliklə, 1 ay 21 gün müddətində Ermənistan ordusunda 7 hərbi qulluqçu ölüb. Amma bu ölüm faktları üzrə Ermənistan Müdafiə Nazirliyi rəsmi məlumat verməyib. Ermənistan Müdafiə Nazirliyi hərbi xidmətlə əlaqəsi olmayan ölüm halları barədə məlumatları gizlətsə də, bunu mediada yayılan məlumatlardan sonra təsdiqləməyə vadar olub.

Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin katibi Artsrun Hovhannisyan 7 erməni hərbçinin ölüm faktına dair məlumatın gizlədilməsi barədə açıqlama verməyə məcbur olub: "Bu məlumat verməmək mənası daşımır. Kim deyir ki, bunu ilk növbədə bizim saytda yerləşdirmək lazımdır? Mənim elə bir öhdəliyim yoxdur".

Parlamentin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının sədri Andranik Koçaryan nazirlik təmsilçisinin belə bir açıqlama verməsinin qəbuledilməz olduğunu vurğulayıb. O bildirib ki, Müdafiə Nazirliyinin məsul əməkdaşları il ərzində ölən əsgərlərin sayını düzgün qeydə almırlar: "Ümumiyyətlə, son vaxtlar orduda qeyri-döyüş şəraitində ölən əsgərlərin sayında artım müşahidə olunur. Bunun səbəbləri kökündən araşdırılmalıdır. Günahı olan istənilən şəxs - istər general, istər zabit və istərsə də digər hərbçi öz layiqli cəzasını almalıdır. Onun sözlərinə görə, bu ənənənin əsası Serj Sarkisyanın hakimiyyəti dövründə qoyulub və hələ də davam etdirilir".

### Ermənistan ordusunun real mənzərəsi

Hüquq müdafiəçisi Janna Aleksanyan son bir ildə orduda baş verən neqativ halları şərh edərkən maraqlı faktlar açıqlayıb. O qeyd edib ki, 2018-ci ildə Ermənistan ordusunda özünə qəsd hallarının sayı 21 olub: "Ümumilikdə isə orduda ölən əsgərlərin sayı 71-dir. Əgər bir əsgər öz canına qıyırsa, demək bunun arxasında kifayət qədər müəmmalı, şübhəli hallar var. Eyni zamanda əsgər-komandir inamsızlığı, etimadsızlığı mövcuddur və nizamnamədən kənar hallar baş verir. Bir hüquqi məsul şəxs kimi deyə bilərəm ki, valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyətini komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olmasıdır. Yəni əsgərlər alçaldılırlar və döyülürlər".

Bütün bunların fonunda orduda fərarilik hallarını sayının artması təbii sayılır. Hesab edilir ki, qarşıdakı dövr ərzində erməni ordusunda daha böyük problemlərin qeydə alınması qaçılmazdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# Külək oyadan çərşənbə

İnsanların inancını əks etdirən bayramlar, el şənlikləri canlı tarix nümunələri olub xalqımızın qədim inancını daşıyır. Novruz da ən qədim xalq bayramlarındandır. Əski Novruz inanclarına dayanan, insana, təbiətə həyat verən dörd ünsürdən biri də yeldir. Yel çərşənbəsi "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə", "Yelli çərşənbə" və başqa adlar ilə də tanınır.









Foto A.MƏMMƏDOVUNDUR

Yel şifahi xalq ədəbiyyatımızdan müasir ədəbiyyatımıza kimi əksər nümunələrdə öz əksini tapmışdır. Xalq bədii nümunələrində və inanclarda müxtəlif mənalarda işlənən yel Kainatın yaradılmasında əsas yer tutan dörd ünsürdən biridir. Mövsüm nəğmələri içərisində də yel haqqında bədii nümunələrə rast gəlinir:

*A Yel baba, Yel baba,*
*Qurban sənə, gəl, baba.*
*Taxılımız yerdə qaldı,*
*Yaxamız əldə qaldı.*
*A Yel baba, Yel baba,*
*Qurban sənə, gəl, baba.*

Təsəvvüf ədəbiyyatında külək Səba kimi ifadə olunur. Səba ruhani aləmdən əsən külək, Allahdan kamil insanların qəlbinə dolan ruhani nəfəsdir ki, bəşərin öz əslinə qovuşmasına vasitəçi olur.

Quranda isə yelin Allah tərəfindən göndərildiyi qeyd edilərək "müjdəçi" adlandırılır. "Ən-Nəml" (Qarışqalar) surəsinin 63-cü ayəsində oxuyuruq: "(Bütlər yaxşıdır) yoxsa qurunun və suyun (səhranın və dənizin) zülmətlərində sizə doğru yol göstərən, külәkləri Öz rəhməti (yağışı) önündə müjdəçi olaraq göndərən kimsə?! Məgər Allahla yanaşı başqa bir tanrımı var?! Allah (müşriklərin) Ona şərik qoşduqlarından (bütlərdən) ucadır!"

Əski inamlarda yel tanrı kimi qəbul edilir, yaxud hər hansı bir missiyanı yerinə yetirmək üçün dünyanı idarə edən qüvvə tərəfindən göndərilən bir qüvvə kimi göstərilir. O, köməkedici, cəzalandırıcı funksiyaya sahibdir. Əski etiqadlardan qaynaqlanan materiallarda "qara nəhr"dən dörd cür külək - ağ yel, qara yel, xəzri, gilavar Yer üzünə çıxır. Hərəsinin də öz donu olur. Bu donların rəngləri də mifik dünyagörüşündən qaynaqlanır. Ağ yel - ağ libasda, qara yel - qara libasda, xəzri - göy libasda, gilavar - qırmızı libasda təsvir edilir.

Azərbaycan mifik təfəkküründə yel yolgöstərən, bələdçi funksiyasını yerinə yetirir. Yel baba yolunu azan insanların qarşısına çıxır, onlara yolu tapmaqda köməkçi olur. O, yolu azanlara yumaq ip verərək bu vasitə ilə onları düz yola çıxarır.

*İp yumağın səridi,*
*Təri zəhmət təridi,*
*Havaya isti gəldi,*
*Suyun buzu əridi.*

Yel bir varlıq kimi götürülür, ilahi qüvvənin iradəsinin ifadəsi kimi çıxış edir, bu səbəbdən də Yel babanın şərəfinə xüsusi mərasimlər, ayinlər keçirilir. Bu mərasim dörd ilahi başlanğıcdan üçüncüsü olan Yel çərşənbəsində icra olunur. Yellə bağlı nəğmələr, bayatılar söylənilər, Yel baba köməyə çağırılar.

Əcdadlarımız inanmışlar ki, Yel baba xırmana gəlməmişdən qabaq oradan taxıl bitkiləri götürməzlər. Belə inanc var ki, sovurulandan sonra ilk buğda götürənin oğlu olar. Yel baba rabitə yaradan vasitə hesab edilirdi. Ən maraqlı rituallardan biri isə qızların küləyə "ərə getmə" mərasimidir. Taxıl döyümü vaxtı boğanaq qalxarsa, qızlar "boğanaq, gəlmə, sənə gedəcəyəm" deyiblər.

Yel çərşənbəsi günü digər çərşənbələrdə olduğu kimi, tonqallar qalanır, süfrələr bəzənir. Evlərdə plov, əsasən də südlü plov, bulğur aşı bişirilir. Süfrəyə dənli bitkilərdən hazırlanmış yeməklər, quru meyvələrdən və şirniyyatlardan ibarət xonçalar qoyulur. Evlərdə təmizlik işlərinə başlanır, səməni cücərdilir, bəzi evlərdə isə azca boy atmış səmәninin belinə qırmızı qurşaq bağlanır. Bu ərəfədən başlayaraq bayram üçün yeni geyimlər alınır. Yel çərşənbəsində xüsusi ayinlər də icra olunur, söyüd ağacının altından keçərlər ki, niyyətlər qəbul olunsun. Adamlar dəstə-dəstə Yel dağına ziyarətə də gedərmişlər.

Xalq arasında yellə bağlı inanclar üstünlük təşkil edir. Bəzi bölgələrdə külək bərk əsərkən evin ilk övladı sonbeşik uşaqla canamazı (namaz qılınan parça) əncir ağacına bağlayaraq deyir:

*Mən anamın ilkiyəm,*
*Ağzı qara tülküyəm.*
*Xəzri, yat, gilavar yat...*
*Külək, sürmə at,*
*Gəl, ələkdə yat!*

Bu şeir parçası bəzi bölgələrdə son misraları dəyişməklə dolunun dayandırılması üçün də oxunur. Yel çərşənbəsində isə yel əsmədikdə "küləkçağırdı" mərasimini icra edirlər. Bu mərasimdə müxtəlif ayinlər həyata keçirilirdi. Çərpələng uçurtma da bu ayinin bir hissəsi kimi ənənələr sırasındadır. Maraqlıdır ki, Pakistanda keçirilən, "Bəsənt" adı ilə tanınan bahar bayramında da rəngli çərpələngləri uçurtma adəti mövcuddur.

Ulularımızın inancına görə, Yel çərşənbəsində vədə külәkləri Xızır Nəbinin əmri ilə məhəbbət qanadına çevrilərək ürəkdən-ürəyə əsir və sevgini aləmə yayır. Məhz bu səbəbdən də oğlanlar bu çərşənbədə qız seçməyə çıxarlarmış. İnama görə, bu gecə Xızır Nəbi sevgililərə "Abi-kövsər" suyu içirib buta verir. "Ağ yelə tuş olasan səni", "Üstündən ağ yellər əssin" kimi alqışların da bu inancdan doğduğunu desək, yanılmarıq. Hətta inanca görə, Yel çərşənbəsində ata-ananın xeyir-duası olmadan qaçırılan qıza xeyir-duanı əli butalı Xızır Nəbi verir. Bu çərşənbədə qəfəsdəki quşların satın alınıb "Azat-bezat, məni cənnətdə gözət" deyərək havaya buraxılması da inanclarımızdandır. Bəzi hekayələrimizdə bu motiv öz yerini tutur. Xahiş, arzu yazılan çərpələnglərin göyə buraxılması bu çərşənbənin ayinlərindəndir. Xızır Nəbi ilə təmasda olmaq üçün icra olunan "yellənсəkdə yellənmə" mərasimi də bu çərşənbənin rituallarındandır.

Yellə bağlı atalar sözləri də çoxluq təşkil edir: Yelə verdiyin düşmənə qismət olar. Yelə qoşulan çox uzağa getməz. Yel aparan yelinki, yerdə qalan mənimki. Yelin işi elnən deyil, külnəndi. Küləklə yatanın cin atı olar. Yelin zarafatı qovmaqla başlanır.

***Səhər ORUCOVA,***
***filologiya elmləri doktoru,***
***professor***

# Qarabağda Novruz bayramı

Azərbaycan xalqının qədim ilkin qaynaqlarını özündə əks etdirən Novruz bayramı təbiətin oyanışı, gecə ilə gündüzün bərabərləşməsi, əkinçilik həyatının başlanğıcı, ölüb-dirilmə tanrısını özündə təcəssüm etdirən türkün ulu bayramıdır. Novruz bayramı insanlar arasında bərabərlik, dostluq, sülh bayramı olmaqla yanaşı, milli və bəşəri dəyərlərimizi özündə əks etdirən, xalqı firavan həyata, sülhə, dostluğa çağıran zəngin, əvəzsiz yaz bayramıdır.







Minilliklərdən üzü bəri xalqımız Novruzu böyük ehtiramla qarşılayır. Azərbaycanın paytaxtında, bölgələrində Novruz bayramı möhtəşəm təmtəraqla keçirilir. Folklorşünas M.H.Təhmasib yazırdı: "Bütün dünya xalqları kimi, bizim xalqımızın da tarixində saysız-hesabsız bayramlar olmuşdur. Lakin bunların heç biri Novruz bayramı qədər geniş yayılmamış, xalqın məişətində bu bayram qədər kök sala bilməmişdir".

Azərbaycanın müxtəlif regionlarında Novruz bayramı mərasimləri təntənəli şəkildə keçirilir. Bu bayram mərasimi yaşı bilinməyən xalqımızın adət-ənənələrini, dünyaya baxışlarını özündə yaşadır. Novruz bayramı ümummilli səciyyə daşısa da, müəyyən bölgələrdə fərqlər də mövcuddur. Qarabağda da Novruz bayramı ilə bağlı silsilə adət və ənənələr, mərasimlər keçirilir. Bunlar xalq arasında uğur gətirən ənənələr kimi geniş yayılmışdır. İlkin dövrlərdə çərşənbə gecələrinə Qarabağda "tək gecəsi", "tək axşamı" deyilirdi. Sonralar onu çərşənbə axşamı adlandırdılar.

Qarabağda Novruz bayramı gecəsi küsülüləri barışdırar, sevənləri nişanlayar, nişanlı qızlara bayram xonçaları aparardılar. Bayramda xonça göndərmək adəti bu günə kimi davam etməkdədir. Novruz bayramı gecəsi həm də sevgi, istək gecəsi sayılır. Cavan oğlanlar sevdikləri qızlar olan evin bacasından salladıqları qurşaqların ucuna dəsmal bağlayırdılar. Qız və qızın valideynləri o saat mətləbi başa düşürdülər. Əgər bu işə razılıq varsa, dəsmalı qurşaqdan açıb qızın qoluna bağlayırdılar. Qarabağda ən geniş yayılmış kütləvi mərasimlərdən biri də Novruz bayramı toyunun keçirilməsidir. On gün müddətində bayram toyları bütün məhəllələrdə aşıqlar tərəfindən keçirilirdi.

Bunlardan nümunə üçün vaxtilə Gülablı kəndinin aşıqları Aşıq Qaraş, nağaraçı Yelmar, dəmçi Məmmədəlinin iştirakı ilə dan yeri ağarana kimi toy çalınardı və bayram şənliyi keçirilərdi. İkinci aşıq dəstəsi Aşıq Məmməd, nağaraçı Həsən və züyçü Əliş, üçüncü dəstə Aşıq Məhi, züyçü İsmayıl, nağaraçı Həsən olurdu. Sonralar bu dəstələr xanəndələr ilə əvəz olundular. Sazlar, söhbətlər, nəşəli gülüşlər, həzin bayatılar, yanıqlı şikəstələr bir-birinə qarışaraq, xoş bir tərانə yaradırdı. Qarmonda Şeyyub, Ziyadxan isə həm nağarada çalır, həm də xanəndəlik edirdi.

Novruz bayramında Qarabağda kiçik yaşlı uşaqlar arasında heybə, torba, papaq (nənələrimizin uşaqlar üçün toxuduğu papaqdan söhbət gedir) atma adəti və mərasimi bu gün də davam etdirilir. Yeniyetmə uşaqlar qonşulara, qohumlara papaq atmağa gedərkən mərasimlər də keçirirdilər. Bu mərasimlərdən bir neçəsini nümunə göstərə bilərik. Məsələn, ilbizin qabığından zınqırovlar düzəldər, qonşulardan pay alandan sonra onları sevindirmək üçün zınqırovu sinələrinə taxardılar. Cavanlar tanınmasınlar deyə başlarına keçəl, kosa, keçi maskaları keçirərək rəqs edər, tütək çalar və insanları şənləndirərdilər. Ev yiyəsi də onlara qoşular, bununla da bayramın sevincinə rəngarənglik qatardılar. Papaq, yaxud heybə, torba atanı pusmaq və ya tutmaq eldə qəbahət hesab edilirdi. Bunları atan kəs el adətinə uyğun şəkildə özünü gizlədirdi.

Novruz bayramında şər qarışan andan qapılar açıq qoyulur, heybə, torba, papaq atmağa gələn insanlara şirniyyat, qoz-fındıq, qorğa, boyadılmış yumurta, tut, alma, armud qurusu pay qoyulardı. Uşaqlar üçün boyanmış yumurtalar qoyulur və onlar bu yumurtaları götürüb döyüşdürür, bəxtlərini yumurtada sınayırdılar. Təbiidir ki, bunun çox qədim mifoloji anlayışlarla bağlılığı vardır. Yumurta sınanması yaranışı simvolizə edir. Belə ki, yumurtanın özü Yer kürəsini, içərisində olan pərdə havanı, ağı suyu, sarısı isə günəşi əks etdirir. Novruz bayramının zəngin mətbəx ənənələrinin yaradılış fəlsəfəsi ilə bağlı azərbaycanlıların İlaxır çərşənbə və Novruz bayramı günlərində qırmızı yumurta boyama adətini əcdadın və torpağın dirilməsi, canlanması, bir sözlə, oyanma, dirilmə ayini ilə əlaqədar olan ən qədim təsəvvürlərlə bağlı olduğunu görürük. Novruz süfrəsinə çoxlu bişirilmiş yumurta qoyulmasında məqsəd hamının ondan dadaraq yeni ilə, yeni həyata keçmə arzusu idi. Novruz bayramında yumurtadöyüşdürmə oyunu birbaşa bu bayramın yaradılış fəlsəfəsini əks etdirir.

Milli mənəvi dəyərlərə əsaslanaraq səməni cücərtmək, yumurta boyamaq, tonqal qalamaq, heybə, papaq, torba atmaq, şirniyyat bişirmək, meyvə və çərəzlərdən xonça düzəltmək və digər Novruz bayramının atributları bayramın hansı ərazidə keçirilməsindən asılı olmayaraq yazın, təbiətin oyanışını özündə rəmzləşdirən səməni və ondan hazırlanan şirniyyatlardır. Adət-ənənə əsasən hər bir bölgədə eynidir. Adət və ənənələrdən danışarkən belə bir məsələni nəzərə almaq lazımdır ki, haqqında danışdığımız şənliklərin bir çoxu qədim kökə malik olmuşdur. Orta əsrlərdə yaşamış ata-babalarımız bu adət və ənənələrin bir çoxunu öz əcdadlarından irsən qəbul etmişlər". Həmçinin hər bir bölgənin özünəməxsus adət-ənənələri, özəllikləri var. Qarabağda mərasimlər zamanı maraqlı tamaşalar göstərilir, oyunlar keçirilirdi. Bunlardan kəndirbaz, keçipapaq, yelləncək və s. misal göstərmək olar. Novruz bayramı ərəfəsində kəndirbazla bağlı keçirilən bir mərasimə də toxunmaq istəyirəm.

İlaxır Torpaq çərşənbəsi və Novruz bayramı gecəsi (yəni il təhvil olan gecə) Gülablı kəndinin hündür yeri olan Məşədi Abbas qayasında "Vışka" deyilən hündürlükdə üç-dörd yerdə tonqallar yandırardılar. Bu tonqallar bütün gecəni səhərə kimi yanırdı. Bu yandırılan tonqalların alovunu rayonun ən ucqar kəndlərində yaşayan əhali də görürdü. Sübhə kimi tonqal ətrafına yığışan insanlar günəşi xoş əhvali-ruhiyyə ilə qarşılayar, bulaq başına gedər, hər bir insan, dərdini suya danışardı ki, onu su yuyub aparsın. Su üstündən atlanıb xəstəliklərdən xilas olmaq, sudan içməklə səsi təmizləmək və s. kimi ənənələr müxtəlif görüş və tapınmaları ifadə etdiyi kimi, eyni zamanda bayramı el içində müqəddəsləşdirən mərasimlərdir.

Novruz bayramı ərəfəsində cəmiyyətin yenilənməsi, sosial birlik və paylaşma baş verir. Bu birlik və paylaşma təkcə diriləri deyil, dünyasını dəyişənləri də əhatə edir. Dünyasını dəyişənlərə, ili tamam olmayanlara bayramdan əvvəlki cümə axsamında qara bayram, yasdan çıxarma, məzar üstə getmə axır çərşənbə günü keçirilərdi. Novruz bayramı axşamı qonşular təziyəli, yaslı adamların həyətlərində tonqal yandırıb onları qaradan çıxarardılar. Bundan əlavə, həmin gün dünyasını dəyişən əzizlərini gedib ziyarət edər, "Yasin" oxudar və evlərinə dönüb, İlaxır çərşənbə bayramını qeyd edərdilər.

Novruz bayramının gəlişinə az qalmış ilin Axır çərşənbəsində bayram şirniyyatı - şirin çörək (fətir, üçqulaq, ay, ulduz, balıq, saç formasında) bişirilərdi. Qorğa, tut qurusu, qoz-fındıq, qırmızı yumurta (boyaqotu ilə boyayırdıq), armud, alma qurusu, yeddi ləvin laciverd süfrəyə düzülərdi. Novruz bayramının süfrəsi bolluq, firavanlıq, xoşbəxt həyatın rəmzinə çevrilərdi.

Novruz bayramının Qarabağda keçirilən ən gözəl çağı Novruz gününün özü və ilin təhvil olunması vaxtıdır. Azərbaycan xalqının Novruz ilə bağlı inancları bütöv bir sistemdir. Bu zamanda qeyri-adi hadisələr baş verir. Həmin qeyri-adi zamanın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu, bir başlanğıc anı, qeyri-adi zaman nöqtəsidir. Bütün yeni zaman, yeni məkan və bu zaman-məkan daxilində baş verəcək hadisələr həmin zaman nöqtəsindən başlanır. Bu zaman nöqtəsində baş verənlər fərqli xüsusiyyətlərə malik olub, vahid bir əsası müşahidə edir. Məlum olur ki, təzə ilin köhnə ili (yaxud təzə dünyanın köhnə dünyanı) əvəz etdiyi Novruz bayramında iki zaman üz-üzə gəlir. Bunlardan biri getməkdə olan zaman, o birisi isə gəlməkdə olan zamandır. Bunların bir-birini əvəz etməsi Novruz bayramında baş verir. Bu zaman əvəzlənməsində ən mühüm məqam ilin təhvil olunduğu zaman kəsiyidir. Həmin zaman kəsiyi ilə bağlı inanclar vardır. O inanclardan məlum olur ki, ilin təhvil olduğu məqam ağaclar başını yerə endirir, sular dayanır, atlar kişnəyir və başqa qeyri-adi təbiət hadisələri baş verir. Həmin an niyyət məqamıdır. Bunları görənin ürəyindən keçən niyyəti, arzusu hasil ola bilər. Eyni zamanda, bu gecə niyyətlərin baş tutub-tutmayacağının bilindiyi gecədir.

Novruz mərasimi ərəfəsində icra olunan ayinlərdən biri də üzərlik yandırmaqla təmizlənmə-yenilənmə ilə bağlıdır. İnsanlar Novruz çərşənbə tonqallarına üzərlik atır, bununla da ev-eşiyə, mal-qaraya, ev sakinlərinə yönəlmiş mənfi nəzərin təsirini aradan götürürlər. Bunun üçün yanan üzərliyin tüstüsünü evə, ev sakinlərinə tərəf füləyərdilər. Bu adət indi də davam etdirilir. Üzərlikyandırma təzələnmə-yenilənmənin mühüm ayinlərindəndir. Üzərlik vasitəsilə bəd nəzər, mənfi arzular, pis niyyətlər təmizlənir.

Bayramın axırıncı çərşənbəsi təbiətin ilk müjdəsi olan novruzgülü və bənövşə çiçəyi açılırdı. Novruz inanclarında yaz çiçəklərindən novruzgülü, bənövşə obrazına rast gəlmək olur. Belə ki, bənövşə müqəddəs çiçək kimi küsülü insanların arasına atılır. Bu zaman onu tapdalamaq olmaz. Bu, bənövşənin müqəddəsliyini bildirir. Novruz bayramı ilə bağlı oxunan nəğmələrdə Novruzu gətirən çiçək kimi novruzgülü və bənövşə tərənnüm olunur.

İndi Qarabağın əhalisi erməni təcavüzü nəticəsində öz dədə-baba torpaqlarını tərk etməyə məcbur olub Azərbaycanın müxtəlif bölgələrinə səpələnsə də, Novruz bayramının adət-ənənələrini unutmurlar. Ümumilikdə bu bayram xalqımızın milli mədəniyyətinin, folklor zənginliyinin tanıdılması baxımından çox əhəmiyyətlidir.

***Almara NƏBİYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***Bakı Dövlət Universitetinin müəllimi***

Təkrar

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2019-cu ildə (221320) - "Cari təmir" maddəsi üzrə uşaq bağçası-körpələr evinin təmiri və (282230) - "Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri" maddəsi üzrə uşaq bağçası-körpələr evinin əsaslı təmiri işlərinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.**

**LOT 1** - "Cari təmir" maddəsi üzrə uşaq bağçası-körpələr evinin təmiri

**LOT 2** - "Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri" maddəsi üzrə uşaq bağçası-körpələr evinin əsaslı təmiri

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun yuxarıda qeyd olunan lotlar üzrə öz yazılı tender təkliflərini imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərfdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında yerinə yetirilməsi, maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər. Əlaqələndirici şəxs: Rəhimdil Qılınc oğlu Əhmədov, telefon: (018) 655 14 48

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab № AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142340**
**VÖEN: 2900054881**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədlər (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 02 aprel 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə 11 aprel 2019-cu il saat 17:00-a qədər Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanda yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 12 aprel 2019-cu il saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanda yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

## "Azərişıq" ASC 110/35/10 kV-luq "Buzovna 1" yarımstansiyasının yenidənqurma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1**

35/10 kV-luq boruların quraşdırılması və 110/35/10 kV-luq "Buzovna 1" yarımstansiyasının yenidənqurma işlərinin satın alınması - **700 manat**

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93, daxili (22-83))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- ***tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);***
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **05 aprel 2019-cu il saat 16:00**-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **15 aprel 2019-cu il saat 16:00**-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **16 aprel 2019-cu il tarixində saat 16:00**-da Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti xüsusi texnika və nəqliyyat vasitələri üçün şinlərin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Xüsusi texnika və nəqliyyat vasitələri üçün şinlərin satın alınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464-41-11)

İştirak haqqı **400** manat.

**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müəssisənin təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **19 aprel 2019-cu** il tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **29 aprel 2019-cu il** saat 17:00-a qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 aprel 2019-cu il** saat 17:00-da Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### *"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Bakı Kristal Zalı" MMC konsert oturacaqlarının satın alınması üzrə*

### *təkliflər sorğusu elan edir*

İddiaçılar təkliflər sorğusunun predmetinə dair hazırlanmış təkliflər sorğusu üsulu ilə keçirilən müsabiqəyə dəvət formasını "Bakı Kristal Zalı" MMC-də əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır və bağlı zərfdə 15 mart 2019-cu il saat 15:00-a qədər qəbul olunur.

Zərflərin açılma tarixi 16 mart 2019-cu il saat 10:00.

**Ünvan: Bakı Şəhəri, Səbail rayonu, Bayıl massivi, Dövlət Bayrağı Meydanı.**

**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs Teymur Hüseynova müraciət etmək olar.**

**Telefon: (012) 404-31-52 (daxili 210)**

**e-mail: info@crystalhall.az**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### *"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən 2018-ci il üçün Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun hazırlanmış vergi bəyannamələrinin auditi üzrə xidmətlərin satın alınması ilə əlaqədar keçirilmiş*

### *kotirovka sorğusu proseduru başa çatmışdır*

Tender komissiyasının 08.02.2019-cu il tarixli qərarına əsasən "Baker Tilly Audit Azərbaycan" MMC kotirovka sorğusunun qalibi seçilmişdir. Qalib şirkətlə 11.03.2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## "Azercell" ödənişsiz göz müayinələri təşkil etməyə davam edir

"Azercell Telekom" MMC hər zaman fəaliyyətində sosial layihələrə xüsusi yer ayırır. "Azercell"in dəstəyi ilə 2011-ci il iyun ayının 1-də yaradılan "Mobil Göz Klinikası" bu layihələrdən biridir. Valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası"nın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanır. Bu ilin fevral ayında klinikanın həkimləri Qaradağ rayonu, Sahil qəsəbəsində yerləşən "Müşviq" Əlil Uşaqlara Yardım İctimai Birliyinin 5 saylı Bərpa və Sosioloji Mərkəzinə səfər ediblər.




Layihə çərçivəsində 25 uşaq oftalmoloji müayinədən keçib. Ehtiyacı olan şəxslərə lazımi müalicə yazılıb və müvafiq eynəklər təyin edilib.

Qeyd edək ki, layihə çərçivəsində bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir. Fəaliyyətə başladığı gündən "Mobil Göz Klinikası" paytaxt Bakı daxil olmaqla Azərbaycanın əksər rayonlarda yerləşən uşaq və ahıllar evlərini, məktəbləri gəzib və 7500-ə yaxın şəxsə xidmət göstərib. Məlumat üçün qeyd edək ki, 2018-ci il ərzində "Azercell" "Mobil Göz Klinikası"nda 1368 nəfər müayinədən keçib.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

### *"Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) reklam-təşviqat mallarının kotirovka sorğusu üsulu ilə*

### *satın alınmasını həyata keçirir*

Maraqlanan şirkətlər "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14.03.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### *"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən xarici valyutanın satışı ilə bağlı konvertasiya xidmətlərinin satın alınması ilə əlaqədar keçirilmiş*

### *kotirovka sorğusu proseduru başa çatmışdır*

Tender komissiyasının 08.02.2019-cu il tarixli qərarına əsasən "Unibank Kommersiya Bankı" ASC kotirovka sorğusunun qalibi seçilmişdir. Qalib şirkətlə 06.03.2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Gədəbəy Rayon İcra Hakimiyyəti Gədəbəy rayonunda məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində haqqı ödənilən ictimai işlərə cəlb edilmiş işçilərin xüsusi geyim, inventar və materiallarla təmin edilməsi məqsədilə geyim və inventarın təkliflər sorğusu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (022) 326-01-47 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 14 mart 2019-cu il saat 15:00-a kimi qəbul olunur.

Ünvan: Gədəbəy rayonu, M.C.Paşayev küçəsi-3.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Əlibala İbrahimova atası

**AĞABALA İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabran rayonundan Novruz Novruzov Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8569
Sifariş 891
Qiyməti 40 qəpik